# AZƏRBAYCAN RESPUBLİKASI
# SƏHİYYƏ NAZİRLİYİ
# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## « PEDİATRİYA »

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti: **«TİBB ELMLƏRİ»**

proqramın istiqaməti:**3220.01 « PEDİATRİYA »**

**B A K I - 2022**

**Pediatriya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı tibb elmləri doktoru, professor N.H.Sultanovanın ümumi elmi rəhbərliyi ilə aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**


| | |
|---|---|
| Azərbaycan Tibb Universitetinin «II Uşaq xəstəlikləri» kafedrasının müdiri, tibb elmləri doktoru, professor | **Sultanova Nailə Həsən qızı** |
| Azərbaycan Tibb Universitetinin «II Uşaq xəstəlikləri» kafedrasının professoru,ə.e.x., tibb elmləri doktoru | **Musayev Surxay Novruz oğlu** |
| Azərbaycan Tibb Universitetinin «II Uşaq xəstəlikləri» kafedrasının professoru,ə.e.x., tibb elmləri doktoru | **Əyyubova Amaliya Abdulla qızı** |
| Azərbaycan Tibb Universitetinin «II Uşaq xəstəlikləri» kafedrasının professoru, tibb elmləri doktoru | **Qabulov Hüseyn Həsən oğlu** |
| Azərbaycan Tibb Universitetinin «II Uşaq xəstəlikləri» kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru | **Məmmədova Fəxriyyə Mahmud qızı** |

# MƏZMUNU

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoruimtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Pediatriyaya giriş

Fəsil 2. Uşaq xəstəliklərinin propedevtikası

Fəsil 3. Neonatologiya

Fəsil 4. Erkən və böyük yaşlı uşaqlarda rast gəlinən xəstəliklər

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.**Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

«Pediatriya» fənni 3220.01 – «Pediatriya» istiqaməti proqramı üzrə doktoranturadaelmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid fundamental fəndir.

«Pediatriya» fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: «Pediatriyaya giriş», «Uşaq xəstəliklərinin propedevtikası», «Neonatologiya», «Erkən və böyük yaşlı uşaqlarda rast gəlinən xəstəliklər».

«Pediatriya»fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantlarınelmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

«Pediatriya»fənni üzrə fəlsəfə doktoruimtahanıtədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

«Pediatriya»fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş,fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

«Pediatriya»fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3220.01 - «Pediatriya»ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin patofizioloji tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu**– sağlam və xəstə uşaq orqanizminin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr əsasında patoloji proseslərin, xəstəliklərin, patoloji vəziyyətlərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat müalicə üsullarının işlənib hazırlanması.

**Tədqiqatın obyekti** – norma və patologiya zamanı uşaq orqanizminin fəaliyyətinin müxtəlif qanunauyğunluqlarını və patogenetik mexanizmlərini açıqlayan, sağlam və xəstə orqanizmlərdir. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindənəsas ali təhsil proqramının –3220.01 - «Pediatriya» istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoruimtahanının verilməsi prosesində 3220.01 - «Pediatriya» hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların

hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının – doktoranturadaelmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın uşaqlarda patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin müalicə və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ümumi nozologiyaya aid olan məsələləri, tipik patoloji proseslərin etiologiyasını, patogenezini, ayrı-ayrı orqan və sistemlərin patologiyasının əsas formalarını, patoloji proseslərin və bir sıra mühüm xəstəliklərin profilaktikası və müalicəsi prinsiplərinin əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək,xəstəliklərin modelinin yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək,əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORUİMTAHANININ VERİLMƏSİ PROSESİNDƏYOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoruimtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktik xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– pediatriya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata

keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– pediatriya sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda pediatriya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu;

- tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti;

- uşaqlıq dövrlərinin anatomo-fizioloji xüsusiyyətlərini və uşaq orqanizminin əsas inkişaf mərhələləri;

- yenigoğulanlarda norma və patologiya şəraitində yarana biləcək vəziyyətlərinin əsas əlamətləri;

- erkən yaşlı uşaqların qidalandırılmasının əsas qaydalarını və tədbiq prinsipləri;

- uşaqlarda tez-tez rast gəlinən xəstəliklərin etiologiyası, patogenezi, əlamətləri və nəticələri, onların etioloji və patogenetik müalicə prinsipləri;

- patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri;

- tibbin və səhiyyənin inkişafında pediatriyanın əhəmiyyəti, onun digər tibbi-bioloji və tibbi fənlərlə əlaqəsi.

**bacarıqlar:**

- klinik-laborator, eksperimental və digər müayinələrin pediatrik baxımdan təhlilini aparmaq;

- əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

- heyvanlar üzərində eksperimenti planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimentin əhəmiyyətini düzgün qiymətləndirmək;

- xəstəliklərin inişafında, gedişində və nəticəsində tipik patoloji proseslərin rolunu qiymətləndirmək;

- uşaq yaşının dövrlərinə uyğun olaraq fiziki, psixo-motor inkişafının variabelliyini qiymətləndirmək ;

- neonatal dövrün xüsusiyyətlərini qiymətləndirmək, vaxtından əvvəl doğulan uşaqlarda morfoloji yetişməzlik əlamətlərini təhlil etmək, yenidoğulanlarda anadangəlmə şərtsiz reflekslərin təyinini, yenidoğulanın zondla qidalandırılmasının qaydasını açıqlamaq;

- erkən bə böyük yaş dövründə rast gəlinən xəstəlikliklərin differensial diaqnostikasının aparılmasının qiymətləndirilmək;

- instrumental müayinə metodların nəticələrinin qiymətləndirmək (daxili üzvlərinin ultrasəs müayinəsi, ağciyər, ürəyin rentgenoqrafiyası; mədə-bağırsaq traktının rentgenoskopiyası; elektrokardioqrafiya; ezofaqoqastroduodenoskopiya);

- laborator analizlərin nəticələrini qiymətləndirmək (qanın, sidiyin, nəcisin ümumi analizi; qanın biokimyəvi analizi, Qreqerson sınağı; immünoloji analiz; bakterioloji analiz);

- uşaqlarda rehidratasion terapiyanın aparılması taktikasını açıqlamaq;

- uşaqlarda ağciyərlərin vasitəli auskultasiyası qaydasını, xəstə uşaqlarda nebulayzer vasitəsilə dərman verilməsini, yenidoğulanlarda oksigen terapiyanın aparılma üsullarını (maska ilə, nazofaringial zondla), uşaqlarda qaraciyərin palpasiyası və perkussiyası qaydalarınıaçıqlamaq və alınan nəticələri qiymətləndirmək;

- uşaqlarda təxirəsalınmaz yardımın aparılmasını açıqlamaq: qıcolma sindromu, kəskin ürək-damar catışmazlığı, tənəffüs çatışmazlığı, anafilaktik şok, ketoasidoz, hipertermik sindrom; dehidratasiya; mədə-bağırsaq qanaxmaları zamanı;

- Çulitski indeksinə və klinik əlamətlərə əsasən hipotrofiyanın dərəcəsini müəyyən etmək, uşaqlarda klinik və laborator müayinələrə əsasən raxitin dərəcəsinin təyin etmək, hipokalsemik qıcolmalar zamanı təxirəsalınmaz yardımın göstərilməsini bacarmaq;

- Zimnitski, Neçiporenko,Amburje,Kakovski-Addis sınaqlarının nəticələrini qiymətləndirmək;

- temperatur əyrilərinə görə qızdırma reaksiyalarının tiplərini müəyyən etmək;

- diaqnostik allergik sınaqların nəticələrini ayırd etmək;

- uşaqlarda rast gəlinən xəstəliklərin protokollara uyğun tədbiq olunan müalicə taktikasının prinsiplərini təhlil etmək.

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktik xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlər-arası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktik xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

- tədqiqat işinin müxtəlif metodlarını tədbiq etmək;

- statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodlarını tədbiq etmək.

# III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1.PEDİATRİYAYA GİRİŞ

«Pediatriya» fundamental elm və tədris fənni kimi. «Pediatriya»-nın müasir tibb elmində yeri.«Pediatriya» fənni, vəzifələri və metodları. Pediatriyanın inkişafında yeni elmi-texnoloji müayinə metologiyaların rolu. «Pediatriya»- nın və klinik təbabətin inkişafında eksperimentin əhəmiyyəti.Tibbi-bioloji eksperimentlərin aparılmasının ümumi prinsipləri və onların nəticələrinin təhlili.Modelləşmə, onun növləri, imkanları və məhdudiyyətləri.Xəstəliklərin müxtəlif formalarının və mühafizə-uyğunlaşma reaksiyalarının heyvanlar üzərində modelləşdirilməsi; müqayisəli təkamül metodunun əhəmiyyəti. Uşaqlarla bağlı tədqiqatların aparılmasının mənəvi-etik aspektləri.

Pediatriya haqqında anlayış, onun perspektivləri, deontoloji aspektləri. Pediatriyanın əsas hissələri:«Pediatriyaya giriş», «Uşaq xəstəliklərinin propedevtikası», «Neonatologiya», «Erkən və böyük yaşlı uşaqlarda rast gəlinən xəstəliklər».

## FƏSİL 2.UŞAQ XƏSTƏLIKLƏRININ PROPEDEVTIKASI

«Uşaq xəstəliklərinin propedevtikası» bölməsinin pediatriya elmində yeri və rolu.Dölün inkişaf mərhələləri və bətndaxili dövrdə orqan və sistemlərin fəaliyyətinin xüsusiyyətləri. Uşağın müxtəlif yaş dövrlərində orqanizmin anatomo-fizioloji xüsusiyyətləri. Sağlam və xəstə uşağın müayinə üsulları (sorğu, baxış, palpasiya, perkussiya, auskultasiya, laborator və instrumenal müayinələr), aparılma qaydaları və nəticələrinin interpretasiyası. Qidalandırma prinsipləri: təbii və süni qidalandırma qaydaları. Uşaqlarda müxtəlif patoloji vəziyyətlərə xas olan simptomlar və sindromlar.

**2.1. Uşaqlarda müxtəlif yaş dövrlərinin fiziki inkişafının variabelliyi**

Uşaqlarda müxtəlif yaş dövrlərinin fiziki inkişafının variabelliyinin qiymətləndirilməsi və pozulmalarının açıqlanması. Kütlə - boy nisbətinin pozulma səbəbləri. 1 yaşa qədər uşaqların psixomotor inkişafının (motorika, statika, nitq, şərti-reflektor fəaliyyət, ali sinir fəaliyyəti) kompleks qiymətləndirilməsi.

**2.2.Uşaqlarda yaş dövrləri və hər yaş dövrünə xas olan patologiyalar**

Uşaqlarda limfoid sisteminin inkişafı. Limfa düyünlərinin zədələnmə semiotikası.Uşaqarda ağ qanın yaş xüsusiyyətləri və zədələnməsinin qiymətləndirilməsi .Ümumi etiologiya. Səbəb və şərait amillərinin xəstəliyin inkişafında rolu.Uşaq patologiyasının ən mühüm etioloji amilləri (soyuqdəymə, allergiya, endokrinoloji, hematoloji, qidalanma rejiminin pozulması və s.).

**2.3. Uşaq orqanizmin reaktivliyinin patologiyada rolu**

Uşaq orqanizmin reaktivliyi, onun növləri. Reaktivlik və rezistentlik. Reaktivliyi müəyyən edən amillər. İmmunoloji reaktivlik və qeyri-spesifik rezistentlik. Xarici və daxili mühit amillərinin orqanizmin reaktivliyinə təsiri. Sosial amillərin orqanizmin reaktivliyinə təsiri. Xəstəliklərin müalicə və profilaktikasında patoloji reaktivliyin rolu.

**2.4.Uşaqlarda müxtəlif yaş dövrlərində qidalandırmanın əsas prinsipləri**

Təbii qidalanmanın üstunlükləri,ana südü və inək südünün kəmiyyət və keyfiyyət fərqləri.Uşağın əsas qida inqrediyentlərinə olan tələbatı (zülal,yağ,karbohidrat,kalori) əlavə qida yeməkləri, onlarin təyini vaxtı və qaydaları. Qarısıq qidalanmanin təyininə göstəriş.Süni qidalanmada istifadə olunan süd qarışıqlarının təsnifatı. 1 yaşdan yuxarı uşaqların qidalanması,kaloriyə və əsas qida inqrediyentlərinə tələbat.

## FƏSİL 3. NEONATOLOGIYA

«Neonatologiya» bölməsinin pediatriya elmində yeri və rolu. Neonatal dövrün xüsusiyyətləri. Vaxtından əvvəl doğulan uşaqların səciyyələndirilməsi. Neonatal dövrun patologiyası.Yenidoğulanlarda patoloji vəziyyətlərin patogenetik mexanizmləri, diaqnostikanın əsas prinsipləri, müalicə taktikası. Sağlam və xəstə yenidoğulanlarda qulluğun təşkili prinsipləri.

**3.1. Yenidoğulma dövrünün xüsusiyyətləri.**

Yenidoğulan uşaqlarda keçid (tranzitor) hallar. Vaxtında və vaxtından əvvəl doğulan uşaqların səciyyələndirilməsi. Yenidoğulan uşaqlara qulluq. Perinatal patologiyalar. Perinatal patologiyaların differensial diaqnostikası. Müalicəyə müasir yanaşma.Döl qan dövranı. Yenidoğulanlarda bətndaxili inkişafın ləngiməsi sindromu. Yenidoğulanlarda bağırsaq biosenozunun formalaşması, disbioz. Şərti patogen floranın törətdiyi bağırsaq infeksiyaları, diaqnostika, müalicə. Mədə-bağırsaq sisteminin funksional və üzvi xəstəlikləri, klinika, diaqnostika, differensial diaqnostika və müalicə. Yenidoğulanlarda anadangəlmə şərtsiz reflekslərin təyini.Antropometrik göstəricilər.

**3.2. Vaxtından əvvəl doğulan uşaqların xarakteristikası**

Vaxtından əvvəl doğulan uşaqlarda morfoloji yetişməzlik əlamətlərinin təhlili. Apqar şkalası ilə yenidoğulanda asfiksiyanın ağırlıq dərəcəsini təyin edilməsi.Silverman şkalası ilə yenidoğulanda respirator distress sindromunun ağırlığının dərəcəsinin təyin edilməsi. Bollard şkalasına görə yenidoğulanın yetkinlik dərəcəsinin təyin edilməsi.Vaxtından əvvəl doğulan uşaqlarda anadangəlmə şərtsiz reflekslərin təyini.

**3.3. Yenidoğulma dövrünün patologiyaları**

Doğuş zədələri. Bətndaxili infeksiyalar (toksoplazmoz, rubella, herpes, sitomeqalovirus).Yenidoğulanlarda irinli-iltihabı xəstəliklər. Dəri və göbəyin xəstəlikləri. Sepsis. Neonatal sarılıqlar, təsnifatı. Konyuqasion sarılıqlar. Hemolitik sarılıqlar. Yenidoğulanın hemolitik xəstəliyi. Mərkəzi sinir sisteminin

perinatal patologiyaları: klinik mənzərəsi, diaqnostika və diferensial diaqnostikası, müalicəsi (kəskin və bərpa dövründə), profilaktika, proqnoz, dispanser müşahidənin prinsipləri.TPS, etiopatogenez, klinika, differensial diaqnoz, təxirəsalınmaz yardım. Bronx-ağciyər displaziyası, mekoniumun aspirasiyası sindromu, tranzitor taxipnoe. Vaxtında və vaxtından əvvəl doğulanlarda pnevmoniyanın gediş xüsusiyyətləri. Bətndaxili pnevmoniya.

# FƏSIL 4. ERKƏN VƏ BÖYÜK YAŞLI UŞAQLARDA RAST GƏLINƏN XƏSTƏLIKLƏR

## 4.1. Erkən yaşlı uşaqlarda rast gəlinən xəstəliklər.

Erkən yaşlı uşaqlarda pnevmoniya, defisitli anemiyalar, həzm sisteminin xəstəlikləri. Ağız boşluğu xəstəliklərinin semiotikası. Alimentar diareya. Bağırsaq toksikozu: etiologiya, diaqnostika, müalicə prinsipləri, rehidratasiyanın prinsipləri. Qidalanmanın xroniki pozuntuları (distrofiyalar). I, II, III dərəcəli hipotrofiyalar, hipostatura, paratrofiya, Kvaşiorkor, marazm. Etiologya, patogenez, müalicə və profilaktikası. Anadangəlmə ürək qüsurları, klinika, differensial diaqnostika.

### *4.1.1. Kalsium-fosfor və mikroelement mübadiləsinin pozulması*

Kalsium-fosfor mübadiləsi tənziminin pozulması. Hipokalsiemiya. Hiperkalsiemiya. Hipofosfatemiya. Hiperfosfatemiya. Sümük toxuması və onun mineral mübadiləsində iştirakı. Mikroelement mübadiləsi pozulmasının müxtəlif xəstəliklərin inkişafında rolu.

### *4.1.2. Vitamin mübadiləsinin pozulması*

Hiper-, hipo- və avitaminozlar, ekzogen (birincili) və endogen (ikincili) hipovitaminozlar (qidada çatışmazlıq, qidanın sorulması, daşınması və depolarda toplanmasının pozulması). Antivitaminlər haqqında anlayış. Hipo-, hiper- və avitaminozlar zamanı fizioloji funksiyaların və maddələr mübadiləsinin pozulması. Uşaqlarda D hipervitaminozunun və raxit xəstəliyinin etiologiyası və patogenezi. Raxitin D-rezistent forması. Raxitin müalicə və profilaktikasının əsas prinsipləri.Raxitəbənzər xəstəliklər. Spazmofiliya.

*4.1.3. Uşaqlarda helmintozlar.*

Askaridoz. Enterobioz. Trixosefallyoz.Klinikası, diaqnostikası və müalicəsi. Qiardioz (lamblioz), klinik və simptomsuz formaları, müalicə prinsipləri.

## 4.2. Böyük yaşlı uşaqlarda rast gəlinən xəstəliklər.

### *4.2.1. Böyük yaşlı uşaqlarda kardiorevmatoloji patologiya*

Uşaqlarda ürək-damar sistemi xəstəlikləri (kardiomiopatiyalar, diaqnostika, differensial diaqnoz, müayinə üsulları).Revmatik xəstəliklər. Kəskin revmatik qızdırma, etiologiya və patogenez, klinik və instrumental diaqnostika, differensial diaqnostika, mərhələli müalicə prinsipləri, profilaktik tədbirlər. Yuvenil revmatoid artritin klinik gediş xüsusiyyətləri, işçi təsnifatı, diaqnostik meyarları, müalicə və profilaktika tədbirləri. Uşaqlarda birləşdirici toxuma xəstəlikləri. Qırmızı qurd eşənəyi. Dermatomiozit. Sklerodermiya. Düyünlü periarteriit. Klinik xüsusiyyətləri, diaqnostik meyarları, müalicə və profilaktik tədbirlər.

### *4.2.2. Böyük yaşlı uşaqlarda tənəffüs sistemi xəstəlikləri*

Böyük yaşlı uşaqlarda bronxitlər, pnevmoniyalar və plevritlərin xüsusiyyətləri, etiopatogenez, klinika, instrumental və laborator diaqnostikanın müasir üsulları, müalicə prinsipləri, profilaktikası.Bronxial astma, respirator allergozlar, etiopatogenez, klinika, instrumental və laborator diaqnostikanın müasir üsulları, müalicə prinsipləri, profilaktika. Uşaqlarda ağciyərlərin irsi xəstəlikləri (Kartaqener sindromu, alfa-antitripsinin defisiti, mukovissidoz), etiopatogenez, klinika, diaqnostka, müalicə prinsipləri.

### *4.2.3. Uşaqlarda həzm sisteminin xəstəlikləri.*

Xronik qəbizlik, müalicə, pəhriz terapiyası. Qastroduodenitlər. Mədə və 12-barmaq bağırsağın xora xəstəliyi. Klinik –laborator diaqnostika, müalicə planının

təyini, kəskinləşməyə qarşı tədbirlər. Xronik hepatitlər, etiopatogenezi, klinik formaları, diaqnostikası, müalicə prinsipləri. Qaraciyərin sirrozu. Differensial diaqnostika.

### *4.2.4. Uşqlarda endokrin sistemin xəstəlikləri*

Uşaqlarda şəkərli diabet, klinik gedişin xüsusiyyətləri, differensial diaqnostika, müalicənin müasir prinsipləri. Komatoz hallar.Uşaqlarda diffuz toksiki zob, hipotireoz, klinik gediş xüsusiyyətləri, differensial diaqnostika, müalicənin müasir prinsipləri. Uşaqlarda böyrəküstü vəzin kəskin və xronik çatışmazlığı, klinik gediş xüsusiyyətləri, differensial diaqnostika, müalicənin müasir prinsipləri.Uşaqlarda piylənmə. Nanizm. Timus vəzin patologiyaları. Differensial diaqnostika. Müalicənin müasir prinsipləri.

### *4.2.5. Uşaqlarda anadangəlmə-irsi xəstəliklər*

Uşaqlarda anadangəlmə-irsi xəstəliklər (qalaktozemiya, qlikogenozlar, fruktozemiya), patogenez, klinik aspektlər, müalicə prinsipləri. Fenilketonuriya, lipid mübadiləsinin irsi xəstəlikləri, patogenez, klinik aspektlər, müalicə prinsipləri.

### *4.2.6. Uşaqlarda hemostaz pozulmaları.*

Hemofiliya, talassemiya, trombositopenik purpura. Disseminəolunmuş damar daxili laxtalanma (DDL) sindromu.Kəskin və xronik leykoz. Limfoqranulomatoz.

### *4.2.7. Uşaq poliklinikası işinin əsas prinsipləri*

Sahə pediatrının işi ilə tanışlıq. Uşaq poliklinikasında sənədləşdirmə. Uşaq poliklinikasının strukturunun xüsusiyyətləri. Poliklinikada müayinə prinsipləri. Sağlam və xəstə uşaqların dispanserizasiyası.Sağlam uşaq kabinetinin işi. Sağlam uşaqların qəbulu və müayinəsi. İmmunoloji kabinetin fəaliyyəti. Peyvəndlərin təqvim planı, əks göstərişlər, fəsadlar, onların müalicə və profilaktikası.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat**


1. A.A.Əyyubova, H.H.Qabulov, N.H.Sultanova. « Uşaq xəstəlikləri » 2018
2. N.N.Namazova, Ə.Q.Həsənov, S.N.Musayev, R.D.Quliyev, L.H.Hidayətov, M.S.Pənahova, X.C.Mustafayeva «Uşaqlarda öd kisəsi və öd yollarının xəstəlikləri», 2015
3. A.A.Əyyubova, E.S. Səfərəliyeva, N.H.Sultanova, A.İ.Ağayeva «Uşaq poliklinikasının işinin təşkili », 2014
4. Namazova A.Ə., Məmmədova F.M., Həsənov Ə.Q. «Uşaqlarda qeyri-revmatik miokarditlər», 2014.
5. N.Ə.Tağıyev «Neonatologiya» 2007, 2008
6. S.Ş.Həsənov. «Yenidoğulanlarda reanimasiya və intensiv terapiya.» Tədris vəsaiti, 2009
7. N.Ə.Tağıyev «Yarımçıq doğulan uşaq» Bakı - 2007.
8. N.Ə.Tağıyev, İ.M.Musayev. «Neonatologiyadan testlər toplusu» Bakı, 2000
9. Н.П.Шабалов «Неонатология», 2004
10. Шабалов Н.П. «Детские болезни» 2020
11. Nelson. «Essentials of pediatrics». By Kliegman & Robert & Marcdante & Karen J. 2019. 840 p.
12. «Неонатология» Национальное руководство. Под ред. Володина Н.Н. «Геотар-Медиа». 2019. 750с.


**Əlavə ədəbiyyat**


13. A.Ə.Namazova , T.Q. Tağızadə « Körpələrdə hipertermik sindrom və təcili yardım » 2017
14. N.M. Məmmədova, M.Z. Əfəndiyeva , A.M. Əliyeva « Vaxtından əvvəl doğulan uşaqların qidalanmasına müasir yanaşma » 2018

15. S.M.Ələsərova , N.C. Rəhimova, A.M. Əliyeva « Yenidoğulanlarda dəri və dərialtı toxumanın xəstəlikləri», 2021

16. «Sağlam yenidoğulmuşa qulluq üzrə klinik protokollar» Bakı-2008.

17.Кельцев В.А. Пропедевтика детских болезней. Ростов: «Феникс»-2011. 576 с.

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 3220.01 «Pediatriya» ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoruimtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoruimtahanına hazırlığı «Pediatriya»fənni üzrə mühazirələr və praktik məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- uşaq orqanizminin normal inkişafının mərhələrini və xüsusiyyətlərini, uşaqlarda patoloji proseslərin və xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin müalicə və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək

- ümumi pediatrik nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin, orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu; tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizm üçün əhəmiyyəti; orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri; patoloji proseslərin öyrənilməsində eksperimental

metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri.

-klinik-laborator, eksperimental və digər müayinələrin təhlilini aparmaq; heyvanlarda eksperimental tədqiqatları planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimental metodun əhəmiyyətini düzgün qiymətləndirməyi bacarmaq;

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək; müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini təhlil etmək və qiymətləndirmək.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5("əla"), 4("yaxşı"), 3("kafi") və ya 2("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant «Pediatriya» fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant «Pediatriya»ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, xəstəliklərin etiologiya,patogenezi, klinika,müalicəsi,diaqnostikası haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası |

| | |
|---|---|
| | xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat mlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant «Pediatriya»fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant «Pediatriya» ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri, ümumi nozologiya, tipik patoloji proseslər, xəstəliklərin etiologiya,patogenezi, klinika,müalicəsi, diaqnostikası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı qismən bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant «Pediatriya»fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant «Pediatriya»ixtisası üzrə yerli və xarici tədqqiatmıların məlumatları, ümumi nozologiya, tipik patoloji proseslər, xəstəliklərin etiologiya,patogenezi, klinika,müalicəsi, diaqnostikası haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorantsualın məzmununu kifayət qədər açıqlamır və «Pediatriya» fənnini mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant «Pediatriya»ixtisası üzrə yerli və xarici məlumatlar, ümumi nozologiya, tipik patoloji proseslər, xəstəliklərin etiologiya,patogenezi, klinika,müalicəsi, diaqnostikası haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları |

| | |
|---|---|
| | ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |

## VI BÖLMƏ.FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZIRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLARIN SİYAHISI

1. Uşaq yaşının dövrləri və hər yaş dövrü üçün xas olan patologiyaların xarakteristikası. Uşaqlarda müxtəlif yaş dövrlərində fiziki inkişafın variabelliyinin qiymətləndirilməsi və pozulmaları,kütlənin geri qalması və artması,boyun uzunluğu,bədənin ayrı-ayrı hissələrinin qeyri-mütənasib inkişafi,kütlə-boy nisbətinin pozulmasının səbəbləri.
2. Uşaqlarda beyinin morfoloji və funksional yaş xüsusiyyətləri,uşaq doğulduqdan sonra mərkəzi sinir sistemi strukturlarının inkisafı və differensasiyası.Mərkəzi sinir sistemin zədələnməsinə səbəb olan ante - ,intra - və postnatal amillər.1 yaşa qədər uşaqların psixomotor inkişafının kompleks qiymətləndirilməsi (motorika,statika,nitq,sərti-reflektor fəaliyyət,ali sinir fəaliyyəti)
3. Uşaqlarda dərinin morfo-funksional xüsusiyyətləri və bununla əlaqədar infeksion və qeyri-infeksion xəstəliklərdə səpgilərin semiotikası. Usaqlarda dərialtı piy toxumasının quruluş xüsusiyyətləri və onun qiymətləndirilməsi və zədələnmə semiotikası.
4. Uşaqlarda sümük-əzələ sisteminin anatom-fizioloji yaş xüsusiyyətləri, skletin formalaşması və böyüməsi,sümük yaşı,sümük toxumasının əsas zədələnmə semiotikası (osteomalyasiya,osteoporoz,osteoid toxumasının inkişafının sürətlənməsi,deformasiyalar və s.). Əzələ sisteminin zədələnmə semiotikası.
5. Uşaqlarda tənəffüs sisteminin anatom-fizioloji xüsusiyyətləri,müxtəlif yaşlı uşaqlarda tənəffüs küyünün xarakteri, pueril tənəffüsün mexanizmi, tənəffüs sisteminin zədələnmə sindromları.
6. Ürək və damarların anatomo-fizioloji xüsusiyyətləri. Dölün qan dövranı.

Anadangəlmə ürək qüsurlarının əsas əlamətləri,mio - ,endo - və perikardın zədələnmə semiotikası.

7. Həzm sisteminin anatomo-fizioloji yaş xüsusiyyətləri,həzmin tipləri və zədələnmə semiotikası. Uşaqlarda zülal,karbohidrat,yağ və su-duz mübadiləsinin yaş xüsusiyyətləri və zədələnmə semiotikası.
8. Sidik-ifrazat sisteminin anatomo-fizioloji yaş xüsusiyyətləri,uşaqlarda diurezin pozulmasının semiotikası (oliqouriya, poliuriya, pollakiuriya, hematuriya,leykosituriya, silindiruriya)və zədələnmə sindromlari (dizurik,nefrotik,nefritik və s.)
9. Uşaqlarda embrional qanyaranma və qırmızı qanın yaş xüsusiyyətləri və zədələnmə semiotikası (anemik,hemolitik,hemorragik).Uşaqlarda ağ qanın yaş xüsusiyyətləri və zədələnmə semiotikasi. Uşaqlarda limfoid sistemin inkişafı,limfa düyünlərinin zədələnmə semiotikası. Qeyri-spesifik müdafiə amilləri,komplement sistemi,uşaqlarda hüceyrə və humoral immunitet.
10. Təbii qidalanmanın üstunlükləri,ana südü və inək südünün kəmiyyət və keyfiyyət fərqləri.Uşağın əsas qida inqrediyentlərinə olan tələbatı (zülal, yağ,karbohidrat,kalori), əlavə qida yeməkləri, onlarin təyinin vaxtı və qaydaları.Qarısıq qidalanmanin təyininə göstəriş.Süni qidalanmada istifadə olunan süd qarışıqlarının təsnifatı. 1 yaşdan yuxarı uşaqların qidalanması,kaloriyə və əsas qida inqrediyentlərinə tələbat.
11. Yenidoğulma dövrünün xüsusiyyətləri. Yenidoğulan uşaqlarda keçid (tranzitor) hallar. Vaxtında və vaxtından əvvəl doğulan uşaqların səciyyələndirilməsi. Yenidoğulan uşaqlara qulluq. Neonatal sarılıqlar. Təsnifatı. Qeyri-konyuqasion hiperbilirubinemiya. Yenidoğulanın hemolitik xəstəliyi, etiologiyası, patogenezi, klinik gedişinin xüsusiyyətləri, diaqnostikası, müalicə və profilaktikası, proqnoz. Konyuqasion hiperbilirubinemiya.Bətndaxili infeksiyalar. Toksoplazmoz, listerioz, sitomeqaliya, rubella, herpes. Klinika, diaqnostika, müalicə və profilaktika.Yenidoğulan uşaqlarda irinli-iltihabi xəstəliklər. Dəri və göbək xəstəlikləri. Yayılmış irinli-iltihabi xəstəliklər. Sepsis, etiologiya,

patogenez, klinik formaları, diaqnostikası, müalicə və profilaktika prinsipləri.

**12.** Qidalanmanın xronik pozuntuları (distrofiyalar). I, II, III dərəcəli hipotrofiyalar, hipostatura, paratrofiya. Etiologiyası, patogenezi, müalicə və profilaktikası.

**13.** Raxit. Raxitin müxtəlif mərhələlərində klinik-biokimyəvi, rentgenoloji dəyişikliklər. Diaqnostikası. Müalicə və profilaktikası. Spazmofiliya, klinik formaları və simptomları, müalicəsi. D hipervitaminozu və onun müalicəsi.

**14.** Uşaqlarda tənəffüs sisteminin xəstəlikləri. Kəskin sadə bronxit. Kəskin obstruktiv bronxit Etiologiyası, patogenezi, klinikası, müalicəsi, profilaktikası. Residivləsən bronxitin etiologiyası, patogenezi, klinik əlamətləri, müalicəsi, profilaktikası. Erkən yaslı usaqlarda kəskin pnevmoniyanın etiologiyası, patogenezi, klinik əlamətləri, müalicəsi, profilaktikası. Boyük yaslı usaqlarda kəskin pnevmoniyanın etiologiyası, patogenezi, klinik əlamətləri, müalicəsi, profilaktikası. Bronxial astma. Etiologiyası, patogenezi, klinikası, müalicəsi, profilaktikası. Usaqlarda asmatik status. Asmatik statusdan çıxarmaq uçun intensiv terapiyanın prinsipləri.

**15.** Uşaqlarda həzm sisteminin xəstəlikləri. Ağız boşluğu xəstəliklərinin semiotikası. Alimentar diareya. Bağırsaq toksikozu. Etiologiya, diaqnostika, müalicə prinsipləri. Rehidratasiyanın prinsipləri. Uşaqlarda həzm sisteminin xəstəlikləri. Qastroduodenitlər, mədə və 12 barmaq bağırsağın xora xəstəliyi. Klinik–laborator diaqnostika. Müalicə planının təyini. Kəskinləşməyə qarşı tədbirlər. Uşaqlarda hepatitlər və ödçıxarıcı yolların xəstəlikləri. Xolangioxolesistitlər. Klinik-laborator diaqnostika. Müalicə planının tərtibi. Bağırsaq sorulmasının pozulması sindromu. Mukovissidoz, seliakiya, enteropatiyalar.

**16.** Helmintozlar. Askaridoz. Enterobioz. Trixosefallyoz.Klinikası, diaqnostikası və müalicəsi. Qiardioz (lyamblioz). Klinik və simptomsuz formaları. Müalicə prinsipləri.

**17.** Dəmirdefisitli, hipo- və aplastik anemiyalar. Təsnifatı, etiologiyası, patogenezi, klinikası, differensial diaqnozu, müalicəsi, profilaktikası. Yenidoğulanların və erkən yaşlı usaqların anemiyası. Differensial diaqnostika. Anemiyaların müalicəsi və profilaktikası.

**18.** Uşaqlarda birləşdirici toxumanın diffuz xəstəlikləri. Usaqlarda dermatomiozit. Sklerodermiya. Sistem qırmızı qurd eşənəyi. Etiologiyası, patogenezi, klinik əlamətləri, diaqnostikası, gedisi, müalicəsi.

**19.** Uşaqlarda endokrin patologiya. Şəkərli diabet. Etiologiyası, patogenezi, klinikası, diferensial diaqnozu, müalicəsi, profilaktikası. Diabetik komaların differensial diaqnozu, müalicəsi. Hipotireoz. Etiologiyası, patogenezi, klinikası, differensial diaqnozu, müalicəsi, profilaktikası.

**20.** Təxirəsalınmaz yardım. Bayılma, kollaps, şok. Kəskin damar catışmazlığı zamanı təxirəsalınmaz yardım. Qıcolma, hipertermiya və larinqospazm zamanı təxirəsalınmaz yardım.